

**Ayxan Ayvaz**

# Füzulinin qatili

**(Hekayə)**

***- Bu qəzəldə nə demək istəyir Füzuli?***

***- Canına azzar...***

***- Nə?***

***- Heç nə, gətir görüm hansı qəzəli deyirsən...***

***Bu dialoqu oxuduğunuzda bizim qəhrəman pillələri enməkdə, şəhərin bozluğuna qovuşmaqda olacaq. Düşüncəli və qayğılı görkəmdə dayanacağa gələcək, gəlib keçən adamlara diqqət kəsiləcək, uzaqdan görünən dənizə baxışlan ilə sığal çəkəcək.***

- Oğlum...

Atası gecə paltarında yanında peyda olanda gözlərinə inana bilmədi:

- Bu nə viddi? Niyə gəlmisən bura? Dəlisən?

- Füzulinin təzə qəzəlini tapmışam. Bunu heç oxumamışdıq.

- Sənin F...

İstədi söysün, böyür-başındakı saqqalı adamlardan hürkdü. Həm də indi-indi hiss elədi ki, camaat gecə paltarında dayanacaqda Füzulidən danışan atasına dəli kimi baxır.

- Get, ata, get. Evdə danışarıq.

- Rindu şeyda...

Atası barmağını silkələyə-silkələyə uzaqlaşdı.

Hara gedəcəyini bilmirdi. Əlimyandıda iş axtarırdı. Beşmərtbəli binanın tinində tək qanadlı mələk çıxdı qarşısına.

- Ey bəni insan!

- Sən kimsən, xalacan?

- Nə xala, ə? Gözünə açki tax. Mələyəm e, mən, mələk. Göylərdən gəlmişəm.

- Yaxşı şeyləri yazan mələksən, yoxsa pis şeyləri?

- Sənin dərdini bilirəm. Arvadın tərk edib. Mütləq iş tapmalısan. Mən sənə kömək edə bilərəm. Atanın taleyini yaşayırsan...

- Atamın arvadı ilə işin olmasın. O, mənim həm də anamdı. Başa düşdün?

***- Sizi tərk eləyib getmişdi...***

***- Hə, tutaq ki elədi. Sonra? Neyləyəcəksən? Zamanı geri gətirəcəksən?***

***- Mən səni xilas...***

***- Nömrəni ver e sən. Gecə boşsan?***

***Mələk təəccüblü baxışlarla onu süzüb qanadlandı.***

***- Füzuli gör burda nə deyib.***

***Çevriləndə atası ilə qarşılaşdı. Tuman-köynəkdə əlində kitab gülümsəyirdi.***

- Ata, başın xarab olub?

- Füzuli deyir ki, ey ğəmə düçar...

- Küçənin ortasında Füzulini söydürmə.

Bir də baxıb gördülər ki, Füzulinin heykəlinin qabağındadırlar. Füzulinin heykəli tərs-tərs onlara baxırdı.

- Salam, Füzuli. – atasıydı.

Cavab gəlmədi.

- Rüşvət deyil deyə almadı salamı.

Atası dərsdən iki almış şagird kimi mısmırığını sallaya-sallaya uzaqlaşdı. O isə yenə də iş axtarmağa yollandı.

- Harda oxumusuz? – şirkət nümayəndəsi soruşurdu.

- Füzuli qəzəlləri...

- Necə?

- Füzulini əzbər bilirəm.

- Bizə ingilis dilini bilən lazımdı...

Evə çatanda öz-özünə söyürdü: “Hara baxırsan qız axtarırlar. Oğraşlar. Elə bil kişinin əlindən heç nə gəlmir”.

Bu arada səhər qabağına çıxan mələk qulağına pıçıldadı:

- İstəsən, səni qız da eləyə bilərəm.

Qulağına şillə vurdu:

- Kəs səsini!

Atası əlində Füzulinin kitabı yanında bitmişdi.

- Gözlə, ata...

Qocanın gözləri parıldadı.

Telefonu götürüb kənara çəkildi, atası arxasındaydı.

- Alo, Nazlı! Mənəm... Hə... Yox... Tapmamışam hələ... Bir dəqiqə də... Bağlama... Nolar... Qızımın səsinə qulaq asım...

- Oğlum, Füzuli gör nə deyib:

Qəd ənarəl-eşqə-lil-üşşaqi minhacəl hüda!

Saliki-rahi-həqiqət eşqə eylər iqtida.

- Vallah, iş də tapacam... Ata bir dəqiqə... İzah edəcəm onu... Yox, sənlə deyiləm.

- Məncə, demək istəyir ki, eşqin gücünə çox da bələd olma.

- Yox e, səni demir... Füzulinin şeirini oxuyur...

- Deyir, birində qalma, başqalarına bax...

***- Məzələnmək? Nə məzələnmək e?***

***Düt-düt-düt...***

***-Ey ki, əhli-eşqə söylərsən: məlamət tərkin et!***

***Söylə kim, mümkünmüdür təğyiri-təqdiri-Xuda? – atası ucadan deyirdi...***

***- Sənin əhli eşqinə də, Füzulinə də...***

***Mətbəxdən bıçağı alıb atasının üstünə cumdu.***

***Sonrakı kadrda atası döşəmədə uzanmışdı, böyründən qan axır, qıraqda gölməçə yaradırdı. Qarnının üstündə kitab, kitabın üzərində Füzulinin rəsmi. Yaxınlaşıb atasına baxanda rəsmdəki Füzuli ona göz vurdu...***